HAQQIN SÖZÜ - SÖZÜN HAQQI 15 MART 2019-CU İL/ №005 (85)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



AZƏRBAYCANLILARSIZ MUZEYLƏR

3



ƏDƏB BİR TAC İMİŞ NURU XUDADAN

5



DİAQNOZU YANLIŞ QOYULMUŞ XƏSTƏ

6



İKİ YOL VAR

## MAMUKA BAXTADZE: GÜRCÜSTANDA MÜƏLLİMLİK İXTİSASI ƏN YÜKSƏK MAAŞLI PEŞƏLƏRDƏN BİRİ OLACAQ



"Finlandiya, Norveç, Danimarka, Sinqapur və başqa aparıcı ölkələrlə yanaşı Gürcüstan əsas üstünlüyü təhsil və insan kapitalının inkişafı olan ölkə olacaq". Bu haqda Gürcüstanın baş naziri Mamuka Baxtadze Milli Kitabxanada "Təhsil-Azadlığa aparan yol" təşəbbüsünün təqdimatı zamanı bildirib.

Onun sözlərinə görə, bu, Gürcüstanda məktəbəqədər və ümumi təhsilin sürətli templə Avropa səviyyəsinə qalxması, müəllim peşəsinin isə ən yüksək maaşlı peşələrdən biri olacağı deməkdir.

"Biz keyfiyyətli yeni mərhələyə keçid istəyirik və təhsil sahəsinə istiqamətlənmiş maliyyə hər il artacaq, ən çox 2022-ci ildə bizim ümumi daxili məhsulun 6%-nə çatanda maksimuma nail olacağıq. Bu isə ölkə büdcəsinin dörddə birini təşkil edir. Bu, xüsusi qanunvericiliklə, "Təhsil bərabərliyi aktı" ilə təmin olunacaq. Qanunvericilik mövcud olan və ya gələcək hökumətə onilliklər ərzində öhdəlik qoyacaq ki, hər il təhsil sektorunda məhz qeyd olunan miqyasda yatırım həyata keçirsin", - deyə M. Baxtadze bildirib.

## GÜRCÜSTANDA 2100-DƏN ÇOX İNSAN QIZILCAYA YOLUXUB



Bu il Gürcüstanda qızılca xəstəliyinə yoluxma ilə bağlı 2100-dən çox fakt qeydə alınıb. Bu barədə Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin elmi rəhbəri Paata İmnadze deyib.

"Cari ildə qızılcadan 1 ölüm hadisəsi baş verib. Gürcüstanda qızılca əleyhinə kifayət qədə peyvənd var və bu xəstəliyin qarşısını yalnız peyvəndlənmə yolu ilə almaq olar", - deyə P.İmnadze bildirib.

O, ölkədə qrip virusu ilə bağlı hazırkı vəziyyətə də toxunub, bildirib ki, ötən ilin dekabr ayı ilə müqayisədə qripə yoluxma halları 2,5 dəfə azalıb.

Mərkəz rəhbəri qeyd edib ki, qrip virusunun yayılması aprel ayının ikinci yarısına qədər davam edəcək.

## DAVİD ZALKALİANİ: "AZƏRBAYCAN GÜRCÜSTANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ ÜZRƏ STRATEJİ TƏRƏFDAŞI OLARAQ QALACAQ"

"Gürcüstanın enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşı və əsas qaz tədarükçüsü bundan sonra da Azərbaycan və SOCAR şirkəti olacaq". Bunu Gürcüstanın xarici işlər naziri David Zalkaliani bildirib.

Onun sözlərinə görə, rəsmi Tbilisi Azərbaycan qazını gələcəkdə də almaqda davam edəcək: ""Qazprom" şirkəti ilə danışıqlar yalnız kommersiya strukturlarına satılacaq qaz barədə aparılıb və bu, olduqca az həcmdir, lakin bununla belə rəqabətlilik və aşağı qiymətlərə zəmanət veriləcək".



XİN başçısı qeyd edib ki, Gürcüstan əhalisi, enerji generasiyası və istilik elektrik stansiyaları bundan sonra da Azərbaycan qazı ilə təmin olunacaq.

## TÜRKİYƏ-GÜRCÜSTAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ GÜRCÜSTAN HAKİMİYYƏTİNİ VƏ XALQINI TƏBRİK EDİB

Türkiyə-Gürcüstan parlamentlərarası dostluq qrupunun rəhbəri Halil Etyemez Gürcüstan hakimiyyətini və xalqını Gürcüstan Demokratik Respublikasının parlamentinin ilk iclasının 100 illiyi münasibəti ilə təbrik edib. Halil Etyemez parlamentlərarası dostluq qrupları arasında olan əlaqələrin daha da dərinləşməsini arzulayıb. Qeyd edib ki, Gürcüstan 1918-ci ilin 26 may tarixində ölkə müstəqilliyini bərpa edib, 1919-cu



ilin 12 mart tarixində isə ilk parlament toplantısı baş tutub.

## TÜRKİYƏ GÜRCÜSTANA 100 MİN DOZALIQ PEYVƏND GÖNDƏRİB

Türkiyənin Səhiyyə Nazirliyi Gürcüstana qızılcaya qarşı 100 min dozalıq peyvənd göndərib. Bu barədə Türkiyənin Səhiyyə Nazirliyi məlumat yayıb. Yardım Türkiyə ilə Gürcüstan arasında səhiyyə sahəsində əməkdaşlığa dair müqavilə çərçivəsində baş tutub. Bildirilib ki, peyvənd Sarp sərhəd qapısından Tbilisiyə çatdırılaraq Gürcüstanın uyğun qurumuna təhvil verilib.



# AZƏRBAYCANLILARSIZ MUZEYLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**Bu yaxınlarda rəssam Rasim Həsənovla paytaxtda yeni açılmış Gürcü Təsviri İncəsənət Muzeyini ziyarət etdik. Muzey həqiqətən də möhtəşəmdir. Müasir standartlara uyğun işıqlandırma və hava qurğuları ilə təchiz olunmuş muzeydə iki nəfərin ailə kolleksiyasından ibarət 80 rəssamın 3500 sənət əsəri sərgilənir. Əsərlərin tarixi 1945-ci ildən qeyd edilir, həmçinin 1920-ci ilə aid sənət nümunələri də var.**

Bu yazıda muzey haqqında geniş məlumat vermək fikrində deyiləm. Maraqlananlar özləri gedib o möhtəşəmliyi öz gözləri ilə görə bilərlər. Yeri gəlmişkən, onu da qeyd edim ki, müxtəlif tədris proqramları çərçivəsində muzeyləri ziyarət etmək şagirdlər üçün pulsuzdur. Məsələn, Tbilisidə, Rustaveli 3 ünvanında yerləşən Gürcüstan Milli Muzeyində martın 28-nə kimi məktəblilər üçün həftənin 3-cü və 4-cü günləri giriş pulsuzdur. Sadəcə olaraq əvvəlcədən muzeyə zəng edib qeydiyyatdan keçmək lazımdır, sonra isə şagirdlərlə birgə iki müəllim və üç valideyn olmaqla məşhur rəssam Leonardo Da Vinçinin əsərlərinin rəqəmsal reproduksiyaları ilə yaxından tanış ola bilərlər. Əlbəttə, qeydiyyatdan əvvəl istək və arzu da lazımdır. Əgər bizim müəllimlərimiz belə bir arzu və istəyə təşəbbüs göstərməyəcəklərsə şagirdlərimizin gördüyü yenə də Tbilisi heyvanat parkındakı keçidən, ördəkdən, atdan, dəvədən, eşşəkdən, begemotdan başqa heç nə olmayacaq. Elə ona görə Tbilisi yaddaşımızda zoopark kimi qalır. Zoopark deyəndə Tbilisi, Tbilisi deyəndə zoopark yada düşür. İncəsənət fənnini idman müəllimi tədris edəndə belə olur.

Mətləbdən uzaqlaşmaq istəmirəm. Rasimlə bərabər 3500 sənət əsərini bir-bir nəzərdən keçirdik, müəllifləri haqqında məlumatları oxuduq. Diqqətimizi çəkən 80 rəssam arasında sərgilənən 3 erməni rəssamı oldu. Olsun, axı bura çoxmillətli Gürcüstandır. Bir də ki, sənətin milliyəti olmaz. Sadəcə olaraq sual yaranır ki, ermənilər var, ruslar var, ukraynalılar var, bəs azərbaycanlılar niyə yoxdur?.. Yaxşı, deyək ki, bu muzeydəki əsərlər kolleksiyaçıların zövqünə uyğun toplanıb. Zövqlər mübahisə olunmur. Olsun. Axı biz heç dövlət muzeylərində də yoxuq. Olanımızın altına da "şərq", "fars" sözləri yazılıb. Desək ki, rəssamlarımız yoxdur, yalan olar. O 3500 sənət əsərindən geri qalmayan, hətta sənət baxımından üstün olan sənət əsərlərimiz də var, sənətkarlarımız da.

Bəs niyə muzeylərdə yoxuq?.. Bəlkə muzeylərə getmirik deyə? Bəlkə sənətkarlarımıza, sənətə dəyər vermirik deyə? Axı qayda belədir: başqalarının sənə dəyər verməsi üçün əvvəlcə özün özünə dəyər verməlisən. Özünə, özününkünə dəyər verməyəni, qiymət qoymayanı kim götürüb muzeyindən asar.

Yazının əvvəlində Rasim Həsənovun adını boş yerə çəkmədim. Gənc yaşında yeniliklər edən bu rəssamın əsərləri Gürcüstanın müasir sənət muzeylərindən asılmalıdır. Çünki müasir sözü onun yaratdığı əsərlərə birbaşa aiddir. Rasim rəssamlıqda yeniliyə imza atanlardandır. Həm iş texnikası, həm üslub baxımından, ideya baxımından tam fərqli, özünəməxsus, yeni sənət əsərləri yaradan bu gənc rəssam bu gün öz qiymətini almır, dəyərini almır. Bu gün Rasimin, eləcə də digər istedadlı rəssamlarımızın, heykəltəraşlarımızın tez-tez sərgilər keçirmək, tanınmaq, muzeylərdən asılmaq, müasir dillə desək, reklam olunmaq vaxtıdır. Sonra gec olacaq. Ortaya başqa biri çıxıb Rasimin etdiklərini təkrar edəcək və adı da olacaq hansısa filankəsəşvili və ya bəhmənkəsyan rəssamlıqda yeniliyə imza atdı. Sonra da oturub günahkar axtaracağıq. Günahkar elə özümüzük. Hər addımı vaxtında atmalıyıq. Əsrlər boyu sonrakı ağlımızın faydası olmadı, olmayıb, olmayacaq da.

**Bu gün Avropada art bazar deyilən anlayış var. Bu gün sənət vasitəsi ilə Avropa ölkələri dövlət büdcələrini doldurmaqla yanaşı, həm də mədəniyyətlərini təbliğ edirlər. Bizim onlara çatmağa hələ çox var. Ən azı Gürcüstanda yaşayıb-yaradan sənətkarlara dəstək olmalıyıq, xüsusən də Rasim kimi gənc və navatorlara. Hakimiyyətdə təmsil olunanlarımızdan tutmuş iş adamlarına kimi, çalışmalıyıq ki, bu cür rəssamların tez-tez sərgiləri keçirilsin, rəsmləri alınsın-satılsın, dövlət muzeylərindən asılsın. Bu gün muzeylərdə olmamağımızın səbəbi də vaxtında addımlar atmamağımızdır, muzeylərə, sərgi salonlarına getməməyimizdir. Tbilisidəki incəsənət muzeyləri, qalereyaları istər rəssam baxımından, istərsə də tamaşaçı baxımından azərbaycanlılarsızdır.**

## İKİLİ VƏTƏNDAŞLIĞIN VERİLMƏSİ PROSEDURU SADƏLƏŞDİRİLƏ BİLƏR




"Gürcüstandan olan mühacirlərin ölkə ilə əlaqələrinin saxlanılması üçün ikili vətəndaşlığın verilməsi prosedurunun sadələşdirilməsi çox vacibdir". Bunu Gürcüstan prezidenti Salome Zurabişvili parlamentdə çıxışı zamanı deyib.

O bildirib ki, səfərləri zamanı xaricdə olan gürcü tələbələr və emiqrantlarla görüşüb: "Emiqrantlar, xüsusilə də xaricdə anadan olanlar üçün Gürcüstan vətəndaşı statusu çox əhəmiyyətlidir. Bu, onlara vətənləri ilə əlaqələrini qoruyub saxlamağa kömək edə bilər".

S.Zurabişvili ikili vətəndaşlığın verilməsi və saxlanılması qaydalarının sadələşdirilməsi məsələsi ilə bağlı Ədliyyə Nazirliyi ilə əməkdaşlığın həyata keçirildiyini qeyd edib.

## SABİQ BAŞ NAZİR SİYASƏTƏ QAYIDIB



Gürcüstanın keçmiş baş naziri İrakli Qaribaşvili hakim "Gürcü arzusu" Partiyasına qayıdıb. Bu barədə partiyanın Siyasi Şurasının martın 5-i keçirilən iclasından sonra məlum olub. İ.Qaribaşvili partiyanın siyasi katibi vəzifəsinə təyin olunub.

Qeyd edək ki, İ.Qaribaşvili 2013-2015-ci illərdə Gürcüstanın baş naziri olub. O, vəzifəsindən öz istəyi ilə istefa verib.

## GÜRCÜSTAN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNDƏ VƏ VYETNAMDA SƏFİRLİK AÇACAQ

Bu il Gürcüstan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Vyetnamda səfirlik açacaq. Bu barədə Gürcüstanın baş naziri Mamuka Baxtadze bildirib.

O deyib ki, Gürcüstanın iqtisadi strategiyasının əsas prioritetlərindən biri ölkənin qlobal iqtisadiyyata effektiv inteqrasiyasıdır: "Körfəz və Asiya ölkələri ilə əməkdaşlıq baxımından xüsusi potensial mövcuddur. Həm Körfəz, həm də Asiya ölkələrinin iqtisadiyyatları çox sürətlə artır".

## YOHANNES HAN: GÜRCÜSTAN VƏTƏNDAŞLARI AVROPA İTTİFAQINDAN SIĞINACAQ ALA BİLMƏYƏCƏKLƏR

Gürcüstan vətəndaşları Avropa İttifaqından sığınacaq ala bilməyəcəklər. Belə bir bəyanatla Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Avropa İttifaqının (Aİ) komissarı Yohannes Han çıxış edib.



Komissar deyib: "Biz Avropada tam sabitliyin və firavanlığın olmasını və bu prosesə daha çox qonşularımızın qoşulmasını istəyirik. Gürcüstan bu istiqamətdə mühüm işlər görüb və bizim qənaətimizə görə, təhlükəsiz ölkədir".

Bu məsələdə medianın rolunu xüsusi vurğulayan Yohannes Han deyib ki, mətbuat ictimaiyyəti məlumatla təmin etməlidir və başa salmalıdır ki, Avropa İttifaqında sığınacaq tapmaq artıq mümkün olmayacaq, çünki Gürcüstan təhlükəsiz bir ölkədir.

## GÜRCÜSTANDA ƏCNƏBİLƏRƏ TORPAQ SAHƏLƏRİNƏ MİRAS YOLU İLƏ SAHİB OLMAQ HÜQUQU VERİLƏCƏK

Gürcüstanda xarici ölkə vətəndaşları kənd təsərrüfatına yararlı torpaq sahələrini miras yolu ildə əldə etmək hüququna malik olacaqlar. Bu barədə Gürcüstan parlamentinin Kənd təsərrüfatı komitəsinin sədri Otar Danelia bildirib.

"Xarici ölkə vətəndaşı olan fiziki şəxsin Gürcüstanda kənd təsərrüfatına yararlı torpaq sahəsi almaq hüququ olmayacaq, lakin icarə hüququ qeyri-məhdud olacaq. Hüquqi şəxslərə gəlincə isə mütləq dominant Gürcüstan vətəndaşı və ya gürcü subyekt olmalıdır", - deyib Otar Danelia.

Komitə sədri qeyd edib ki, parlamentdə müzakirə olunacaq yeni qanun layihəsində ölkədə kənd təsərrüfatına yararlı torpaqlara sahib olan və onları becərməyən xarici ölkə vətəndaşlarına qarşı 20 min - 30 min lari arasında cərimənin tətbiq olunması nəzərdə tutulub.

Qeyd edək ki, ötən il dekabrın 16-da qüvvəyə minmiş yeni Konstitusiyaya əsasən, kənd təsərrüfatı torpağı sosial resurs kimi yalnız dövlətə, özünüidarəetmə vahidinə, Gürcüstan vətəndaşı və ya ölkə vətəndaşlarının birliyinə məxsus ola bilər. Bununla da ölkənin əsas qanunu ilə kənd təsərrüfatı torpaqlarının xarici vətəndaşlara satılması tam qadağan olunub.

Hazırda Gürcüstanda, təxminən, 45 000 - 50 000 hektar aqrar torpaq sahələri əcnəbilərin mülkiyyətindədir.

# TBİLİSİDƏ "AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA TƏŞKİLATLARIN ROLU" ADLI BEYNƏLXALQ KONFRANS KEÇİRİLİB



Tbilisidə "Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında ictimai təşkilatların rolu" adlı beynəlxalq konfrans keçirilib.

Tədbirdə Azərbaycanın və Gürcüstanın qeyri-hökumət təşkilatları, Türkiyə diasporasının nümayəndələri, Azərbaycanın və Türkiyənin Gürcüstandakı səfirliklərinin nümayədələri, elm, ictimaiyyət və dini icmaların nümayəndələri iştirak ediblər.

Tədbirin əsas təşkilatçılarından olan "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"nın sədri Musa Hacıyev çıxış edərək bildirib ki, artıq üçüncü dəfədir təşkil olunan tədbirin məqsədi Cənubi Qafqazdakı vəziyyət, təhlükəsizlik və iqtisadi tərəqqi, Azərbaycan-Gürcüstan dostluğunun bu inkişafa təsiri, eləcə də regionda mövcud olan münaqişələr, xüsusən də ermənilərin zaman-zaman bölgədəki işğalçılıq və düşmənçilik siyasəti barədə həqiqətləri QHT-lərin dilindən ictimaiyyətə çatdırmaqdır.

"Hilal" Sosial Araşdırmalar İctimai Birliyinin sədri Arzuman Abdulkərimov çıxışında da regionda mövcud olan münaqişələrdən, Azərbaycanın Dağlıq Qarabağ, Gürcüstanın isə Abxaziya bölgələrindən məcburi köçkün düşmüş insanların acınacaqlı vəziyyətindən bəhs edib. Bildirib ki, QHT-lərin birgə səyi nəticəsində münaqişələrin ədalətli həllinə nail olmaq mümkündür. O, Azərbaycan, Gürcüstan və Türkiyə QHT-lərinin birgə forumunun yaradılmasını təklif edib.

"Müasir inkişaf" İctimai Birliyinin sədri Mübariz Göyüşlü isə bildirib ki, hər iki ölkənin ictimaiyyəti bölgədə separatçılığa qarşı etirazını kəskin formada bildirməlidir: "Azərbaycan və Gürcüstan QHT-ləri Cənubi Qafqazda sülh və ədalətin bərqərar olunmasına öz töhfələrini verə bilərlər. Vaxtilə hər iki ölkənin ziyalıları Qafqaz Evinin yaradılması ilə bağlı təşəbbüslə çıxış ediblər. Bu ideyanın yenidən gündəmə gətirilməsinə böyük ehtiyac var".

"Gənclərin Töhfəsi" İctimai Birliyinin sədri Asim Vəliyev də yaxın tərəfdaşlar olan Azərbaycan və Gürcüstanda fəaliyyət göstərən QHT-lər arasında koordinasiya şurasının yaradılmasını təklif edib: "İki ölkənin vətəndaş institutları arasında əməkdaşlıq gücləndirilməli və əlaqələndirilmiş formada birgə fəaliyyət həyata keçirilməlidir".

Daha sonra çıxış edən politoloq Quram Marxulia müasir dövrdə QHT-lərin rolunun böyük əhəmiyyət kəsb etdiyini deyib: "Geosiyasi müttəfiq olan Gürcüstan və Azərbaycanın ictimai təşkilatları arasında da sıx əməkdaşlıq yaradılmalıdır. Hər iki ölkələri təmsil edən QHT-lərin birgə əməkdaşlıq formatının yaradılmasını dəstəkləyirəm".

Digər gürcü ekspert Nika Çitadze də Gürcüstan və Azərbaycan QHT-ləri arasında koordinasiya mərkəzinin yaradılması ideyasını dəstəklədiyini qeyd edib: "Bəzən hər iki ölkədə həqiqətə uyğun olmayan məlumatlar yaranır ki, bundan da üçüncü qüvvələr istifadə edirlər. Bu cür dezinformasiyalara qarşı ictimai təşkilatlar birgə mübarizə aparmalıdırlar. Həqiqətlərin həm Gürcüstan, həm də Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində QHT-lər hökumətə konkret plan və təşəbbüslər təklif edə bilərlər".

Konfransda Azərbaycanın Gürcüstandakı səfirinin birinci katibi Rəhim Rəhimzadə, Türkiyənin Gürcüstandakı səfirinin birinci katibi Onur Sevim, professor Mahmud Kamaloğlu, Gürcüstan Azərbaycalıları Konqresinin sədri Hüseyn Yusubov, politoloq Vasiko Papava, Türkiyə diasporasının nümayəndəsi Sevilay Yıldırım, Türkiyəli professor-doktor Hasan Oktay, jurnalist-politoloq Badri Naçkebia, Gürcüstan Azərbaycanlıları Ağsaqqalları Şurasının



sədri İsak Novruzov, Gənclər Təşkilatının sədri Nərgiz Əliyeva, jurnalist Avtandil Otiaşvili, Gürcüstan Azərbaycanlı Jurnalistləri Birliyinin sədri Nizami Məmmədzadə də çıxış ediblər. Onlar Azərbaycan və Gürcüstan QHT-ləri arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətindən danışaraq hər hansı bir formada əməkdaşlıq mərkəzinin yaradılacağı təqdirdə, bu formata Türkiyənin ictimai təşkilatlarının da cəlb olunmasını təklif ediblər.

Qeyd edək ki, konfrans "Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"nın, "Hilal" Sosial Araşdırmalar İctimai Birliyinin, "Müasir inkişaf" İctimai Birliyinin və "Gənclərin Töhfəsi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub.

# ƏDƏB BİR TAC İMİŞ NURU XUDADAN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**Tərbiyə, yaxşı əxlaq, incəlik, gözəllik mənalarını daşıyan ədəb dilimizə ərəbcədən gəlmişdir. Hörmət və əxlaqlı davranış olaraq da qəbul edə bilərik. Ədəb "ədəbiyyat"ın da mənşəyidir.**

Ədəb doğumdan ölümə qədər davam edən zaman dilimində insanın nəfsini nəzarətdə saxlaması, hirsini cilovlaya bilməsi, ağlını işlətməsi, qəlbini təmiz tuta bilməsidir.

Öyrənmənin sonu yoxdur. Yaxşılığın, gözəlliyin, təkamülün də sonu yoxdur. Hər məlumat, xasiyyət və əxlaq səviyyəsi yüksəklərə gedən bir nərdivanın pilləlеridir. Hər insan da əməlləri ilə bir pillədə yerini alır. Yalnız ən üst pilləni görə bilmərik, çünki ora yalnız peyğəmbərlərə və mələklərə məxsusdur.

Hz. Mövlananın təbiriylə desək, "Əgər insanoğlu ədəbdən məhrum isə insan deyil. İnsanın heyvandan fərqi ədəbdir. Gözünü aç və Allahın bütün kəlamına diqqət yetir. Ayə-ayə bütün Quranın mənası ədəbdir".

Bəli, iffət, həya, şərəf və istiqamət kimi əxlaqi dəyərlərdən məhrum olan fərd və cəmiyyətlər, fənn və texnika sahəsində nə qədər tərəqqi etsələr belə, xüsrandan xilas ola bilməz və hüzurla yaşaya bilməzlər. Bu üstünlüklərdən məhrum olan fərdlər, nə qədər münəvvər, nə dərəcə təhsilli, nə nisbətdə sənətkar da olsalar, o millət, bu fərdlərə istinadən bir ahənglə tərəqqi edə bilməz. Bu baxımdan, fərd və cəmiyyəti iman, əxlaq, fəzilət, mədəniyyət, elm, ədəb və həya ilə təchiz etmək lazımdır ki, maddi və mənəvi tərəqqi edilsin. Ədəb və mədəniyyət sahibi olanlar həyatını nizam və intizam içində keçirər və hüzurla yaşayarlar. İnsanlığın ruhu, həqiqəti və zinəti olan ədəb və tərbiyənin fərd və cəmiyyət üçün əhəmiyyəti aşkardır. Bu möcüzə beyt də bu həqiqəti çox yığcam bir şəkildə ifadə etməkdədir:

"Ədəb bir tac imiş nuru Xudadan,
Gey ol tacı, əmin ol hər bəladan."

Mövlananın mürşidi olan Şəms Təbrizi isə belə buyurur: "Ağıldan imanın həqiqəti nədir?" deyə soruşdum. Ağıl qəlbimin qulağına dedi ki, "İmanın həqiqəti ədəbdən ibarətdir". Təbrizi sözünə belə davam edir: "İnsanın bədənindəki can nədirsə, ədəb də odur. İnsanların ürəyindəki və gözündəki nurlar ədəbdən ibarətdir. Bu kainatın qübbəsindəki nizam və gözəlliklər ədəbdir. Gecələri parıldayan ən nurlu və ən üstün işıq ədəbdir".

Ədəb və iffət namusun pərdəsidir. Namus ancaq ədəb və həya ilə mühafizə edilər. Həyat deyilən şey ədəbdir. Bəli, ədəb insanın məftun olduğu, lakin şeytanın və şeytan kimi insanların xoşlanmadığı gözəl əxlaqın ən əhəmiyyətli şöbələrindəndir. Ədəb və iffətin düşməni ədəbsizlikdir. Ədəb hər vaxt təqdirlə, həyasızlıq isə lənətlə yad edilir. Bu baxımdan, hər müsəlmanın ən əhəmiyyətli xüsusiyyəti ədəb, həya və nəzakət olmalıdır. Çünki ədəb və həya sahibi olmaq eyni zamanda hörmət, xoşgörüş, ədalət, dürüstlük, sevgi və nəzakət kimi gözəl xüsusiyyətlərə sahib olmağı da özü ilə gətirər. Bundan məhrum olan insanlar və cəmiyyət içindəki möhtərəmliyini də itirər.

"Ədəbli ədəbindən susar, ədəbsiz də mən susdurdum zənn edər", deyir Hz. Mövlana Cəlaləddin Rumi... Yüz illər keçdi, daha əsrlər də keçsə Mövlananın bu düşüncələri və sözləri hər zaman insanlığa işıq tutmağa davam edəcək. Ədəb yolunun prinsiplərinə diqqəti çəkən Mövlana bir də şərh gətirərək "Ey insan ədəb nədir? deyə soruşsan, bil ki, ədəb ancaq hər ədəbsizin ədəbsizliyinə səbr etmək və dözməkdir" demişdir.

**Gəlin indi bir düşünək görək ədəb, sadəcə mənəvi təlimlərdə, din kitablarında bir söz olaraqmı qalıb, yoxsa həyatımızda tətbiq olunurmu?..**

## GÜRCÜSTAN MİQYASINDA NEÇƏ NƏFƏR KİŞİ MÜƏLLİM İBTİDAİ SİNİFDƏ DƏRS DEYİR

Gürcüstanda müəllimlik stereotiplər əsasında qadın peşəsi hesab olunur və yəqin ki, 67344 müəllimin 58 mindən çoxunun qadın olması təəccüblü fakt deyil.

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin verdiyi məlumata görə, Gürcüstanda cəmi 36714 nəfər ibtidai sinif müəllimi var, onun 31517 nəfəri qadın, 5197 nəfəri isə kişidir.

Qeyd edək ki, qadın ibtidai sinif müəllimlərinin sayı kişi müəllimlərdən 6 dəfə çoxdur.

Məlumata görə, ən çox kişi ibtidai sinif müəllimi Kvemo Kartli (973), İmereti (872) və Acara (826) bölgələrindədir. Ən az isə Abxaziya (20), Mtsxeta-Mtianeti (126), Raca-Leçxumi və Kvemo Svaneti (141) bölgələrindədir.

Paytaxt Tbilisidə isə ibtidai sinif müəllimi olaraq 345 nəfər kişi, 7373 nəfər qadın çalışır.

**İbtidai sinif müəllimləri arasında gender balansı haqqında məluatla ətraflı tanış olun:**

| Bölgə | Cinsi | Sayı |
|---|---|---|
| Abxaziya | Kişi | 20 |
| | Qadın | 196 |
| Acara | Kişi | 826 |
| | Qadın | 3704 |
| Quriya | Kişi | 250 |
| | Qadın | 1512 |
| Tbilisi | Kişi | 345 |
| | Qadın | 7373 |
| İmereti | Kişi | 872 |
| | Qadın | 6146 |
| Kaxeti | Kişi | 336 |
| | Qadın | 3729 |
| Mtsxeta-Mtianeti | Kişi | 126 |
| | Qadın | 1206 |
| Raca-Leçxumi və Kvemo Svaneti | Kişi | 141 |
| | Qadın | 667 |
| Sameqrelo-Zemo Svaneti | Kişi | 551 |
| | Qadın | 4048 |
| Samtsxe-Cavaxeti | Kişi | 494 |
| | Qadın | 3140 |
| Kvemo Kartli | Kişi | 973 |
| | Qadın | 4825 |
| Şida Kartli | Kişi | 263 |
| | Qadın | 2936 |

## BÖLGƏLƏRƏ ƏSASƏN QIZIL VƏ GÜMÜŞ MEDAL ALAN ŞAGİRDLƏRİN SAYI

***Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məktəbi uğurla başa vuran şagirdlərə qızıl və gümüş medallar verəcək. Nazirliyin statistikasına əsasən, ən çox medalçısı olan bölgələrin siyahısını təqdim edirik.***

2016-2017 və 2017-2018-ci tədris illərinin medalçılarının siyahısının müqayisəsi nəticəsində məlum oldu ki, qızıl və gümüş medal alan şagirdlərin sayına görə Tbilisi, İmereti və Şida Kartli bölgələri liderlik edir.

2016-2017-ci tədris ilinin məzunları arasında 3133 medalçı şagird olub, onların 2209-u qızıl və 924-ü gümüş medal alıb.

Bölgələrə əsasən daha ətraflı 2016-2017-ci tədris ilinin medalçı şagirdlərinin sayı aşağıdakı kimidir:

- Tbilisi - 670 qızıl və 291 gümüş medal.
- İmereti - 447 qızıl və 148 gümüş medal.
- Şida Kartli - 216 qızıl və 68 gümüş medal.
- Kaxeti - 195 qızıl və 70 gümüş medal.
- Sameqrelo-Zemo Svaneti - 179 qızıl və 108 gümüş medal.
- Acara - 166 qızıl və 87 gümüş medal.
- Kvemo Kartli - 131 qızıl və 45 gümüş medal.
- Samtsxe-Cavaxeti - 93 qızıl və 55 gümüş medal.
- Quria - 40 qızıl və 17 gümüş medal.
- Mtsxeta-Mtianeti 37 qızıl və 19 gümüş medal.
- Raca-Leçxumi və Kvemo Svaneti - 18 qızıl və 8 gümüş medal.
- Abxaziya - 17 qızıl və 8 gümüş medal.

2017-2018-ci tədris ilinin qızıl və gümüş medalçılarının sayı isə 2975 nəfərdir ki, onlardan 2638-i qızıl, 337-si isə gümüş medal alıb.

Bölgələrə əsasən 2017-2018-ci tədris ilinin medalçılarının sayı:

- Tbilisi - 779 qızıl və 360 gümüş medal.
- İmereti - 533 qızıl və 187 gümüş medal.
- Şida Kartli - 256 qızıl medal.
- Sameqrelo-Zemo Svaneti - 232 qızıl və 87 gümüş medal.
- Kaxeti - 224 qızıl və 94 gümüş medal.
- Acara - 222 qızıl və 114 gümüş medal.
- Kvemo Kartli - 164 qızıl və 3 gümüş medal.
- Samtsxe-Cavaxeti - 92 qızıl və 45 gümüş medal.
- Quria - 61 qızıl və 16 gümüş medal.
- Mtsxeta-Mtianeti - 38 qızıl və 13 gümüş medal.
- Raca-Leçxumi və Kvemo Svaneti - 22 qızıl və 11 gümüş medal.
- Abxaziya - 15 qızıl və 7 gümüş medal.

***Doğrudur, nazirlik artıq 2017-2018-ci tədris ilinin qızıl və gümüş medalçılarının siyahısını təsdiqləyib, ancaq yenə müəyyən dəyişikliklər ola bilər. Şagirdlərə medalları təqdim edənə qədər medalçıların sayı dəyişə bilər. Ancaq bu dəyişikliklər bölgələrə əsasən şagirdlərin bölünməsinin ümumi vəziyyətinə təsir etməyəcək.***

## ŞAGİRDİN MƏKTƏBƏ QƏBUL OLMASI ÜÇÜN TƏQDİM OLUNACAQ VACİB SƏNƏDLƏR HAQQINDA SƏRƏNCAMA DƏYİŞİKLİK DAXİL OLUB

Şagirdin ümumtəhsil müəssisəsinə qəbul olması üçün təqdim edəcəyi vacib sənədlər haqqında sərəncama dəyişiklik daxil olub.

Sərəncama əsasən, şagirdin 1-ci sinfə, eləcə də ümumi təhsilin ibtidai, baza və orta pilləsinin digər siniflərinə qəbul olması üçün təqdim olunacaq vacib sənədlərin siyahısı aşağıdakı kimi olmalıdır:

1. Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşadığı yer və telefon nömrəsi qeyd olunmalıdır;

2. Şagirdin qanuni nümayəndəsinin şəxsiyyət vəsiqəsinin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşadığını təsdiq edən sənədin nüsxəsi (belə hal qeydə alınarsa). Sənədlərin xarici dildə təqdim olunması halında onların Gürcüstan qanunvericiliyinə əsasən yerinə yetirilmiş tərcüməsi gürcü dilində də təqdim olunmalıdır;

3. Şagirdin doğum şəhadətnaməsi və ya şəxsiyyət vəsiqəsinin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşadığını təsdiqləyən sənəd (belə hal qeydə alınarsa). Sənədlərin xarici dildə təqdim olunması halında onların Gürcüstan qanunvericiliyinə əsasən yerinə yetirilmiş tərcüməsi gürcü dilində də təqdim olunmalıdır.

## MƏKTƏB DİREKTORLARININ GENDER STATİSTİKASI NECƏDİR VƏ ƏN ÇOX KİŞİ DİREKTOR HANSI REGİONDADIR?

Gürcüstan miqyasında fəaliyyətdə olan 2057 nəfər məktəb direktoru var. Onun 1265-i qadın, 792-si isə kişidir. Məlumatı Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi verib.

Bölgələrə əsasən direktorların gender balansı statistikasını təqdim edirik. Qeyd edək ki, ən çox kişi direktor – 152 nəfər və ən çox qadın direktor – 213 nəfər İmereti bölgəsindədir.

İmereti – 213 qadın, 152 kişi;
Kvemo Kartli – 128 qadın, 119 kişi;
Sameqrelo-Zemo Svaneti – 140 qadın, 95 kişi;
Samtsxe-Cavaxeti – 117 qadın, 90 kişi;
Kaxeti – 143 qadın, 41 kişi;
Acara – 93 qadın, 131 kişi;
Tbilisi – 137 qadın, 36 kişi;
Şida Kartli – 120 qadın, 39 kişi;
Quriya – 60 qadın, 36 kişi;
Mtsxeta-Mtianeti – 63 qadın, 23 kişi;
Raca-Leçxumi və Kvemo Svaneti – 42 qadın, 26 kişi;
Abxaziya – 9 qadın, 4 kişi.

## LİDER SİNİF RƏHBƏRİNİ XARAKTERİZƏ EDƏN 5 XÜSUSİYYƏT

Məktəblə bağlı çox sayda xatirələr arasında ən vacib və yaddaqalan yeri sinif rəhbərləri tutur. Məhz bu insanlar şagirdlərin həyatında sağlam sinif mühiti və sevgi, bilik və uğurla dolu olan sahə yaradırlar.

Lider sinif rəhbərini xarakterizə edən 5 əsas xüsusiyyət:

1. Humanistlik – Sinif rəhbəri loyallıq, tolerantlılıq, isti və qayğıkeş yanaşmaları ilə fərqlənməlidir.

2. Pedaqoji peşəkarlıq – Sinif rəhbəri öz fənninin peşəkarı olmalıdır. Daim özünü inkişafa istiqamətləndirməlidir. Yaxşı ötürmə bacarığı olmalıdır. Tədrisdə müasir yanaşmalardan istifadə etmək və qiymətləndirmə zamanı obyektiv olmalıdır.

3. Təşkilatçılıq bacarığı – Rəhbər sinfi birləşdirməyi və maraqlı aktivliklərə qoşmağı, məktəb həyatının inkişaf etdirilməsini bacarmalıdır.

4. Avtoritetli olmaq – Sinif rəhbəri hərtərəfli təqlid edilməli adamdır. Təcrübə və tərəqqiyə nail olmuş düşüncəyə əsaslanaraq onun sözünə və qərarına böyük hörmət edirlər.

5. Sağlam ambisiya – Daim uğura doğru tələsmək, öz sinfinin bacarığını göstərmək və nəticələrlə birincilik hər bir lider sinif rəhbərini xarakterizə edir.

Səhifəni hazırladı: Aynurə ƏLİYEVA

# DİAQNOZU YANLIŞ QOYULMUŞ XƏSTƏ

İçimiz çürüyür, siz buna savadsızlıq deyirsiniz. Savadsızlıq, elmsizliyin təxribatıdır. Şüuraltının təxribatına savadsızlıq deyilmir, məntiqdən uzaqlaşmaq deyilir.

Hüquq sahəsində dəlillər, isbatlar nə qədər əhəmiyyət kəsb edirsə, tibb elmində də düzgün diaqnoz bir o qədər əhəmiyyətlidir. Əgər qarşınızdakı xəstəni əzab çəkdiyi xəstəliyin caynağından xilas etmək istəyirsinizsə, əvvəlcə onu başdan ayağa müayinə edib, simptomları diqqətlə nəzərdən keçirib, ona düzgün diaqnoz qoymaq lazımdır. Bundan sonra xəstəyə nəyin vacib olub-olmadığını görə bilərsiniz. Düzgün qoyulmuş diaqnoz xəstəni xilas edər, sağaldar. Yanlış qoyulmuş diaqnoz isə nəinki onu xilas edər, xəstəni daha da betər bir vəziyyətə gətirib çıxardar. Yanlış diaqnoz özlüyündə yanlış müalicə üsulları, yanlış preparatlar gətirər. Bəs nəticəsi? Təəssüf ki, nəticəsi heç də ürəkaçan olmaz.

Bəs görəsən, bizim cəmiyyətə qoyulmuş diaqnozun təməlində də eynən bu cür yanlışlıq ola bilərmi? Cəmiyyətin dərdinə yanlış nöqteyi-nəzərdən yaxınlaşmış ola bilərikmi? Biz bütün xəstəliyimizin üzdə olduğuna kəskin şəkildə inandığımız və qarşı tərəfi də buna inandırdığımız halda, problem əslində daha dərinlərdə, psixologiyada – şüuraltında gizlənmiş ola bilərmi?

“Ağ xalatlılarımız” bu günə qədər cəmiyyətin bisavad qisminə savadsızlıq, ağılsızlıq diaqnozu ilə yaxınlaşdılar. “Bu cəmiyyətin düçar olduğu xəstəlik budur, çarəsi də bax budur” deyildi. İçində bu cür Dostoyevskivari mürəkkəb və pafoslu cümlələr olan diaqnoz isə bu cəmiyyətə nə qədər fayda verdi, (bəlkə də heç vermədi) göz önündədir.

Bir qrup hünərli-hünərli düşüb meydana sizin xəstəliyiniz ağılsızlıq, savadsızlıqdır deyir. Bir başqa qrup sizin xəstəliyiniz ədəbiyyatdan uzaq düşmək, şeirə, sözə, yazıçıya, sənətçiyə qiymət verməməkdir deyir. Bəs bütün bunlar doğrudanmı belədir? Yəni bu qədər bəsitdirmi dərdimizin diaqnozu? Madam ki, xəstəliyin diaqnozu illər əvvəldən qoyulub, niyə hələ də bu cəmiyyətin yaralı və xəstə barmağı sızıldayır, şəfa tapmır?

Gəlin ilk olaraq onu aydınlaşdıraq ki, bu xəstəlik eyni anda həm savadsızlıq, həm də ağılsızlıq deyil. Çünki ağılsızlıq ilə savadsızlıq fərqli anlayışlardır. Bir insan bilik cəhətdən savadlı, amma ağılsız ola bilər. Digər başqa bir insan isə savadsız, ancaq ağıllı ola bilər. Bu iki anlayışı bir-biri ilə qarışdırmaq lazım deyil. Savad – elmi biliklər toplusudur. Elmə yiyələnən şəxsə “savadlı insan” deyilir. Məntiqini işə salaraq topladığı biliklərdən, əgər varsa, yiyələndiyi savad və elmdən doğru yerdə, doğru zamanda istifadə edə bilənə isə “ağıllı insan” deyilir. İnsan var ki, savadlıdır, cild-cild elmi kitablar oxuyub, amma gəl gör ki, bu savadından doğru yerdə, doğru zamanda istifadə edə bilmir. Beləcə, onun illərlə topladığı bu savadı hədər olub bir işə yaramır. İnsan da var ki, savadlı deyil, təhsili natamamdır, amma məntiqini işə salaraq həyatda topladığı təcrübələrindən elə faydalanır ki, düşdüyü hər vəziyyəti öz xeyrinə çevirə bilir. Mənim fikrimcə, cəmiyyətimizin xəstəliyi heç də düşünüldüyü kimi bütöv şəkildə savadlı – savadsız olmaqda deyil, daha dərinlərdədir. Bu cəmiyyətin xəstəliyinin adı psixoloji travmadır! Psixologiyada “şüuraltı” adlandırılan anlayış var. Şüuraltı anlayışından bəhs etmək üçün əvvəlcə şüurun özünün nə olduğuna toxunmaq lazımdır.

Şüur elmi (qavrama), məntiqi qərar vermə funksiyalarını yerinə yetirər; emosional dəyişiklikləri analiz edər; düşünər, mühakimə edər, tənqid edər, dəyərləndirər; fikir və/və ya təlqinləri mühakimə edər və ya rədd edər. Əsasən məntiqimiz bu proseslər zamanı əsas rol oynayar.

Şüuraltı beynimizin fərqində olmadığımız tərəfidir. Bütün istəksiz bədən funksiyalarını idarə edər. Bir mənada avtomatik pilotdur, özü özünü idarə edər. Yaddaş anbarıdır. Təcrübələrimizi xatirələr şəklində bu anbara yığar. Zehnimizin daha dərində yerləşən bu hissəsi eyni zamanda həyəcanlarımız, fikirlərimiz, hisslərimiz, davranışlarımız və alışqanlıqlarımızdan da məsuliyyət daşıyır. Məntiqimiz burada dominant rol oynamaz.

İnsan elə bir varlıqdır ki, məntiqinin sözü keçmədiyi yerdə şüuraltından gələn instiktləri ilə hərəkət edib, ona uyğun davranır, danışır, bağırır və emosiyalarını ifadə edir. Bu sadaladıqlarım şüuraltı zehin davranışlarına aiddir. Şüurlu zehində insan daha çox məntiqi ilə hərkət edir və öz davranışlarını sorğulayır. Bəs biz bu gün cəmiyyətimizin yaralı yerinə baxdıqda nə görürük, savadsızlıq, yoxsa şüuraltı davranışlar? Məncə, burada şüuraltı davranışların payı daha çoxdur. Bu davranışları müşahidə etdikdə görürük ki, həmin bu şüuraltı davranışlar özündə dərin psixoloji travmaların izlərini daşıyır. Yoxsa bir insan nəyə görə teatrın səhnəsində faciə səhnəsi canlandırıldığı zaman durub vəhşicəsinə bağırsın, fit çalsın? Nəyə görə səhnədə obrazlar baş verən dəhşətli faciəyə ağlayarkən, bu, yersiz şit-şit qəhqəhə vurub gülsün? Nəyə görə ciddi seminar və görüşlərdə mövzuya ciddi yanaşmaq yerinə özünü bambılılığa qoysun? Nəyə görə işi gücü hər fürsətdə qarşısındakını alçaltmaq, hövsələdən çıxartmaq olsun? Bir insan axı niyə bunlardan həzz alar? Düşünmüsünüzmü bütün bunların arxasında nələr yatır? Yox, inanmıram ki, bu sadəcə savadsızlıqdan irəli gəlsin.

Tibb elmi bizə deyir ki, bütün bunların arxasında ciddi psixoloji travmalar dayanır. Bizim cəmiyyətdə şiddətə məruz qalan uşaqların əksəriyyətinin uşaqlıq illəri psixoloji travmalarla keçir və əgər bunlar zamanında müalicə olunub aradan qaldırılmazsa, şüuraltında özünə gizli yer edir. Həmin bu psixoloji travmaların daşıyıcıları isə özləri belə fərqində olmadan, şüursuz şəkildə heç bir məntiqə uymayan bu tip hərkətləri sərgiləyirlər. Bu davranışlar sağlam olmayan təfəkkürün və xəstə psixologiyanın məhsuludur.

Ömrü boyu teatr anlayışı içi boş və bayağı komediya verilişlərindən ibarət olan, hər zırıltıya hırıldayıb gülən birinin şüuraltı zehni ciddi bir tamaşada faciəyə gülərək reaksiya verəcək şəkildə travma alır; uşaq yaşlarından ailədə şiddətə, qorxuya məruz qalan birinin şüuraltı zehni yaşının irəliləyən dövründə həm şiddətə meyilli, həm də qorxaq və özünə güvəni olmayan bir şəxs kimi formalaşacaq şəkildə travma alır; “kişisən, qız kimi ağlama, qız kimi yerimə, qız kimi danışma, qız kimi hərəkət etmə” və s. kimi cinsiyyətçi cümlələrə məruz qalan bir oğlan uşağının şüuraltı zehni gələcəkdə qızları oğlanlardan daha aşağı səviyyədə görəcək şəkildə travma alır. Belə çox misallar sadalamaq olar.




Qısaca, bizim bugünkü gün savadsızlıqdan irəli gəlir dediyimiz bir çox şeyin arxasında əslində ciddi psixoloji travmalar durur. Biz şüuraltımızda gizli qalan bir çox hiss – həyəcanımızdan, düşüncəmizdən, eləcə də psixoloji travmalarımızdan xəbərsizik. Bizim yanaşmamız bəlkə də elə ən başından bəri yanlış idi. Məsələyə bir də bu diaqnozla yanaşmaq lazımdır. Çünki psixologiyasında travmalar iz buraxmış bir xəstəyə zorla kitab oxutdurub, zorla teatrda oturdub, zorla şeir əzbərlədərək onun ağrılarını dindirə bilmərik, travmalarını aradan qaldıra bilmərik. Ən yaxşı ehtimalda, onu müvəqqəti uyuşdura bilərik. Bizim istədiyimiz isə uyuşdurulmuş cəmiyyət deyil, sağlam təfəkkürlü və sağlam düşüncəli cəmiyyətdir!

***Elcan HACIYEV***

Tbilisi Dövlət Universiteti, Tibb fakültəsi

@mesyoeljan

# MƏKTƏB EKSKURSİYALARINA DAİR TƏNZİMLƏMƏLƏR SƏRTLƏŞDİRİLİR

Qəbul edilməsi planlaşdırılan Uşaq Hüquqları Məcəlləsində məktəb ekskursiyaları ilə bağlı yeni tənzimləmələr qüvvəyə minəcək. Məcəllənin təşəbbüskarı Parlamentin İnsan Hüquqlarının Müdafiəsi və Mülki İnteqrasiya Komitəsidir.

İctimai tədbirlərdə uşaqların hüquqlarının qorunmasını tənzimləyən maddə səkkiz bənddən ibarətdir. Həmin bəndlərdə ekskursiya zamanı Daxili İşlər Nazirliyinin (DİN) qoşulması, qidanın gigiyenik normalarının qorunması və ilkin tibbi yardım öhdəlikləri qeyd olunub. Bu bəndlərə əsasən, məktəblərin ekskursiya üçün nəqliyyat şirkəti ilə müqaviləsiz nəqliyyat kirayələmək hüququ yoxdur.

Həmçinin sinif rəhbəri sürücünün təcrübəsi haqqında məlumat, tövsiyyələr və sürücülük vəsiqəsi, eləcə də nəqliyyatın texniki baxımdan qaydada olduğunu təsdiqləyən sənəd tələb etmək hüququna malikdir.

Məcəllənin təsdiqlənməsi halında, məktəb ekskursiya təşkilatçısı kimi DİN-ə tədbirin təfərrüatları haqqında məlumat vermək məcburiyyətindədir. Lazım gəldiyi halda onları patrul polisi də müşayiət edə bilər.

Qanunla müəyyən ediləcək ki, uşaqların ekskursiyasında məktəbin həkimi və ya ilkin tibbi yardım üçün hazır olan şəxs də iştirak etsin. Belə şəxs mandatur və ya valideyn də ola bilər. Lazım gələn halda Təhsil Nazirliyinə də müraciət edə bilərlər.

Uşaq Hüquqları Məcəlləsi prinsiplər səviyyəsində artıq yazılıb və onun komitə və sessiya dinləmələri başlamalıdır. Bundan sonra o Gürcüstan parlamentində təstiqlənəcək. Qanunun qüvvəyə minmə müddəti olaraq 2020-ci ilin iyun ayı müəyyən olunub. Bu məcəllə ilə nəzərdə tutulmuş tənzimləmələrin pozulması müxtəlif növ sanksiyalara səbəb olacaq.

# İKİ YOL VAR



Həmid SADIX
**Kalinin ictimai məktəbinin köməkçi müəllimi**

İcmamız keçid dövrünü yaşayır. Keçid dövrünü yaşayır deyəndə ki, yol ayrıcının astanasındadır. Biri qapalı əsrlər üzərinə yamanmış stereotiplərlə olduğu kimi qapalı həyat tərzini davam etdirmək, hansı ki, əsrlər keçsə də eyni cür qalacaq, eyni həyat tərzi, eyni ənənə zənciri, eyni dolanış, eyni peşə (əkinçilik, maldarlıq, alver), eyni məişət həyatı (qız köçürüb, gəlin gətirmə dərdi). İkinci isə, dünyaya çıxışdır – açıq qapı. Yeni peşə, yeni ixtisas, fərdi həyat tərzi, mədəni status.

Birinci yolu seçənlər tarix boyu eyni cür qalırlar. Bu cür cəmiyyətlərdə heç nə dəyişmir. Övladlarını özlərinin böyüdüyü kimi böyüdən ailələrdən ibarət icmanın taleyində heç vaxt dəyişiklik ola bilməz.

Özü 15 yaşında evləndirilmiş ana qızını da o yaşda evləndirirsə onun övladının özününkündən xoşbəxt həyatı olacağını gözləməməlidir. Bir kişi oğlunu özünün böyüdüyü ssenari ilə böyüdürsə onun ondan yaxşı həyatı olacağını gözləməməlidir. O ana, necə ki, resurs mərkəzə, ədliyyəyə sənəd dalınca gedəndə necə boynu bükük yazıq təəssüratı bağışlayırdısa özü kimi böyütdüyü qızı da o cür olacaq. O ata necə ki, ömrünü çayxanalarda keçirmişdi eyni ssenari ilə böyütdüyü oğlu da o cür olacaq. Yəni bizim resepti və strukturu dəyişmədiyimiz müddətcə fərqli, yediyimizdən daha dadlı yemək gözləməyimiz tarix boyu təkrarlanan axmaqlıqdan başqa bir şey deyil. İnsanlarımız başa düşmür ki, övladlarını özləri kimi eyni şəraitdə, eyni qadağalarla, eyni həyat tərzi ilə, eyni planlarla böyütdükləri müddətdə övladlarına özlərininkindən fərqli tale, həyat tərzi, peşə, mədəniyyət bəxş etmək planları 2+2-nin cəmindən 5 gözləməkdir.

Özünün böyüdüyün kimi böyüdüyün övlad bədbəxtsənsə səni kimi bədbəxt, xoşbəxtsənsə səni kimi xoşbəxt olacaq.

İkinci yol isə tərəqqi yoludur – zamanın ruhuna uyğun. Övladının özü kimi iqbalsız, dilbilməz, bixəbər olmağını istəməyən bir insan başqalarında gördüyü rahat, rəngli, şən həyatın resepti ilə böyüdəcək övladını. Necə deyərlər, öz bildiyi kimi yox, oyunun qaydalarından dolayı, zamanın tələblərindən dolayı hərəkət edəcək. Övladının da özünün qarşılaşdığı çətinliklərlə qarşılaşmaması üçün tədbir görəcək.

Gördüyünü qoyub görəcəyinə getməyən bir xalq tarix boyu elə eyni yerdə qalacaq, əsrlər boyu eyni gündə qalacaq. İki yol var – ya olduğun kimi qalmaq, ya da dəyişmək.

Bu yazının sadə, bəsit bir şey olduğunu düşünəcəksiz. Razıyam. Amma sabah özü 14 yaşında evlənmiş bir qadının öz qızını da 14 yaşında evləndirib öz gününə qoymasını görəndə, bir kişinin özünün ömrü boyu domino oynamaqdan başqa heç nə bilmədiyi kimi oğlunun da özü kimi heç nə bilmədiyini görəndə bu sadə dediyiniz bir şeyin bizim dərk etməyimiz üçün necə qəliz olduğunu görərsiz.

# BİLİNQUAL TƏHSİLİN ƏHƏMİYYƏTİ



**Sayalı İsmayılova**
*İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Psixologiya və Təhsil fakültəsinin 3-cu kurs tələbəsi*

O insanlar ki, iki dili də mükəmməl mənimsəmişlər, həmin insanları bilinqual insanlar adlandırırlar. Bəs bilinqual təhsil və onun əhəmiyyəti nədən ibarətdir?

Bilinqual təhsil ikidilli təhsil sisteminə deyilir. Gürcüstanda bilinqual təhsil sisteminin yaradılmasının əsas məqsədlərindən biri şagirdlərdə gürcü dilinin bilik səviyyəsinin yuxarı qaldırılmasıdır. Gürcüstan tolerant bir ölkədir. Gürcüstanda təxminən 82 Azərbaycan dilli, 118 erməni dilli, 11 rus dilli məktəb var.

2009-cu ilin 31 martından etibarən multilinqual təhsil (çoxdilli təhsil) proqramı çərçivəsində 234 qeyri-gürcü dilli məktəblərdən 40 pilot məktəb seçildi və bu məktəblərdə yeni təhsil proqramı öz əksini tapdi. Bu pilot məktəblər arasında Marneuli rayonunun 1 nömrəli Alget orta məktəbi də öz yerini tutdu. Bu məktəb 60 illik tarixə malikdir. Məktəb Alget kəndində yerləşir. Yaradılan vaxtdan etibarən Azərbaycan dilli məktəb olmuşdur. Məktəbdə təxminən 500 şagird təhsil alır və 50 müəllim çalışır.

1 nömrəli Alget orta məktəbi 2010-cu ildən etibarən bu proqrama qoşulmuşdur. Bilinqual təhsil proqramı 1-ci, 6-cı siniflərdə həyata keçirilir. Yeni proqram biologiya, təbiət və riyaziyyat fənlərində tətbiq olunur.

Məktəb direktoru bilinqual və sertifikatlı riyaziyyat müəllimi Musa Ömərovdur. Məktəbdə 50 nəfər müəllim işləyirsə, bunların 25 faizi sertifikatlı və bilinqual müəllimlərdir. Məktəbdə təhsil sisteminin daha da gücləndirilməsi üçün peşəkar bilinqual müəllimlər də cəzb olunmuşdur. Direktor katibəsi Marta İsmayılova multilinqual və sertifikatlı ingilis dili müəllimidir.

Şagirdlər ikidilli təhsil almağı çox bəyənirlər. Müəllim kollektivi və valideynlər də ikidilli təhsil proqramını müsbət qiymətləndirirlər. İkidilli təhsil ən cox aşağı siniflərdə özünü biruzə verir. Müəlimlərdən götürdüyüm müsahibə nəticəsində belə qənaətə gəldim ki, ikidilli təhsil proqramı şagirdlərdə o dərəcədə özünü göstərib ki, artıq aşağı sinif şagirdləri dil kompleksi yaşamır və rahat şəkildə özlərini gürcü dilində ifadə edə bilirlər. Hətta ailə üzvləri onları tərcüməçi kimi həkimə və başqa yerlərə aparırlar. Onlar artıq gürcü dostlar belə qazanmışlar.

Beləliklə, bir daha əmin oldum ki, bilinqual təhsil proqramı gürcü dilini daha yaxşı mənimsəmək üçün böyük əhəmiyyət kesb edir.

# TƏHSİL SİSTEMİNDƏ TƏCİLİ DAYANDIRILMALI OLAN 22 SƏHV!

Təhsil sistemində çoxlu sayda çatışmamazlıqlar mövcuddur. Hər dəfə eyni səhvlərə yol veririk və fərqli nəticə gözləyirik. Bəs ən çox nədə səhv edirik? Buna çox cavablar var, bu dəfə təcili olaraq düzəldilməli olan 22 səhvi xatırladacağıq:

1. Tədris prosesinin əyləncəli keçirilməli olduğunu unutmuşuq.
2. Şagirdləri natamam adamlar olaraq qəbul edirik və onlara kiçik uşaq kimi yanaşırıq.
3. Tədris planı hazırlayanda, dəyişəndə və təyin edəndə şagirdlərin xəbəri olmur (axı bu, onlarındır, bizim deyil!).
4. Cəmiyyətin bütün təbəqələri tədris sisteminin qurulmasına qoşulmayıb.
5. Standartları əks istiqamətdə planlaşdırırıq.
6. Şagirdlərin cavablarını qiymətləndiririk, suallarını isə diqqətsiz qoyuruq.
7. Oxumaq biliyin məmnuniyyətlə qəbul edilməsi vasitəsi deyil, bilik olaraq öyrədilir.
8. Maqistr dərəcəsi qazanmaq üçün artıq pul ödəyirik və sonra yenə də magistr dərəcəsindən əvvəl etdiklərimizi təkrar edirik.
9. Böyük məktəblər tikirik və onun tam personallaşmasını gözləyirik.
10. İri dərs materiallarını tədris edirik və fikirləşmək imkanı vermirik.
11. Tədris planı məzmunun ötürülməsinə əsaslanıb, analiz və tənqidi fikrin inkişafına deyil.
12. Oyunun tədrisin ən yaxşı metodu olduğunu unutmuşuq və oyun zamanı düşüncə bacarığı aşağıdır deyirik.
13. Mobil telefonun və ya başqa texnologiyaların gələcəyin təhsil metodologiyasının mərkəzi hissəsi olduğunu diqqətdən kənar qoyuruq.
14. Tədris planını xronoloji olaraq, düz xətlə qaydaya salırıq.
15. “Alternativ məktəblərə” möhür vurmuşuq və düşünürük ki, standart məktəblə heç bir innovasiya müqayisə edilməz.
16. Sinif otağını qaymaq rəng boyayırıq.
17. Məktəb binaları muzeyə və ya şirkət ofisinə bənzəyir.
18. Sinif otaqları şirkət əməkdaşlarının kabinetlərinə oxşayır.
19. Müəllim pis olanda texnologiyanı günahlandırırıq.
20. Texnologiya pis olanda müəllimi günahlandırırıq.
21. Şagirdləri dinləmirik, təkcə müəllimlərin fikri bizi maraqlandırır.
22. Hesab edirik ki, bütün uşaqların arzusu eynidir.

Hazırladı: Mariam ELİAŞVİLİ

## KVEMO KARTLİDƏ 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ BAYRAM TƏDBİRLƏRİ KEÇİRİLİB

Kvemo Kartli bölgəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı müxtəlif sahələrdə uğur qazanmış qadınlara hədiyyələr təqdim olunub. Bayramla bağlı bölgə qubernatoru Şota Rexviaşvili qadınları şəxsən təbrik edib.




Həmin qadınların arasında Marneuli sakini, gürcü dili müəllimləsi, əməkdar pedaqoq Tamar Abazova da olub. Ş.Rexviaşvili və Marneuli Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini həyata keçirən Zaur Tabatadze Tamar Abazovanın evinə baş çəkib və bayram münasibəti ilə ona gül dəstəsi və hədiyyələr təqdim ediblər.

Bolnisi rayonunda isə bayramla əlaqədar olaraq, çoxuşaqlı analar ziyarət olunub. Onların arasında 7 uşaq anası Minəvvər Əskərova da olub. Rayonun icra başçısı David Şerazadişvili M.Əskərovanın evinə baş çəkib və çoxuşaqlı ananı bayram münasibəti ilə təbrik edib.




Beynəlxalq Qadınlar Günü ilə bağlı həmçinin Marneuli Rayon İcra Hakimiyyətində uğurlu şagirdlərlə görüş keçirilib. Görüşdə azərbaycanlı məktəbli Dərya Həsənova da iştirak edib. Yeniyetmə qızlara rayon rəhbərliyi adından gül dəstələri və simvolik hədiyyələr verilib.

Qadınlar Günü ilə bağlı Qardabani Mədəniyyət Evində də tədbir keçirilib. Tədbirə qatılan bölgə qubernatoru Şota Rexviaşvili, Qardabani meri Ramaz Budağaşvili, Qardabani munisipalitetinin sakrebulo sədri Tariel Canxoteli və digər rəsmi şəxslər müxtəlif sahələrdə uğur qazanmış qadınları bayram münasibəti ilə təbrik ediblər.

## KVEMO KARTLİ QUBERNATORU MÜƏLLİMLƏRLƏ GÖRÜŞÜB

Kvemo Kartli qubernatoru Şota Rexviaşvili müavinləri ilə birgə bölgə administrasiyasında "Gürcüstanda öyrət" dövlət proqramına qoşulmuş gürcü dili müəllimləri ilə görüşüb.

Görüşdə Bolnisi, Qardabani, Marneuli və Dmanisinin müxtəlif kəndlərində çalışan 11 müəllim iştirak edib.

Ş.Rexviaşvili müəllimlərlə tanış olub və bölgədə mövcud olan problemlər barədə onların fikirlərini öyrənib.

"Regiona səfərlərimiz zamanı Kvemo Kartli bölgəsinə başqa regionlardan gələn pedaqoqları dəfələrlə aşkarlamışıq. Onlar layiqli iş görürlər, etnik azlıqlara gürcü dili öyrədirlər. Bu insanlar öz ailələrindən uzaqdadırlar. Bizim öhdəliyimiz onlarla görüşmək, tanış olmaq, gündəlik pedaqoji fəaliyyətlərində rast gəldikləri problemləri dinləmək və gələcəkdə bu problemləri həll etməkdir", - deyə



Kvemo Kartli qubernatoru bildirib.

Görüşün sonunda qubernator müəllimlərə sertifikatlar və hədiyyələr verib.

## DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN KVEMO KARTLİDƏ REGİONAL BÖLMƏSİ AÇILIB

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin Rustavi şəhərində regional bölməsi fəaliyyətə başlayır. Bölmənin rəhbəri Abay Paşayev təyin olunub.

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili və Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadze yerli hakimiyyət və ictimaiyyət nümayəndələrinə regional bölmə barədə məlumat veriblər.

Bildirilib ki, Kvemo Kart-



li bölgəsində yaradılan bölmə Dini Məsələlər üzrə Dövlət Agentliyinin ilk regional ofisidir. Bölmə hakimiyyət orqanları ilə yerli dini icmalar arasında fəaliyyəti koordinasiya etməklə yanaşı, bu sahədə mövcud çatışmazlıqları da müəyyən edəcək.

Dini Məsələlər üzrə Dövlət Agentliyinin Acarıstan Muxtar Respublikası və Samtsxe-Cavaxeti bölgəsində də regional ofislərinin açılacağı nəzərdə tutulub.

Qeyd edək ki, Abay Paşayev uzun illər təhsil sahəsində çalışıb. O, həmçinin "Gürcüstan azərbaycanlılarının vətəndaş inkişaf mərkəzi" adlı qeyri-hökumət təşkilatının sədridir.

## VAZİANİ HƏRBİ BAZASINDA KURS KEÇƏN AZƏRBAYCANLI HƏRBÇİLƏR SERTİFİKATLARLA TƏLTİF OLUNUBLAR



Gürcüstan ordusunda xidmət edən azərbaycanlı əsgərlər gürcü dili üzrə intensiv kursu başa vurublar. Vaziani hərbi bazasında kurs keçən 14 azərbaycanlı hərbçi sertifikatlarla təltif olunub.

Sertifikatları Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin direktoru vəzifəsini icra edən Konstantine Sirbiladze təqdim edib.

O, etnik azlıqları təmsil edən hərbçilərin gürcü dilini bilməsinin əhəmiyyətindən danışıb: "Biz, milli azlıqlardan olan çağırışçıların gürcü dili üzrə biliklərini artırmağa çalışırıq ki, bu da onların hərbi tapşırıqları uğurla yerinə yetirməsinə kömək edəcək".

Qeyd edək ki, Gürcüstan ordusunda xidmət edən milli azlıqlardan olan hərbçilər üçün gürcü dili kursu Gürcüstanın Müdafiə Nazirliyi və Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Gürcü dilini Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin müəllimləri tədris edir.

## DMANİSİ VƏ TSALKADA SÜD EMALI ZAVODLARI İNŞA EDİLƏCƏK

Bu il Kvemo Kartli bölgəsində süd emalı zavodları inşa olunacaq. Bu barədə Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitaşvili parlamentdə çıxışı zamanı deyib.

L.Davitaşvili deyib ki, müəssisələr bölgənin Dmanisi və Tsalka rayonlarında dövlət proqramı çərçivəsində tikiləcək.

"Müəssisələrin gücü sutkada 10 tona bərabər olacaq. İnşa olunacaq zavodlar dövlət proqramının tələblərinə cavab verən kənd təsərrüfatı kooperativlərinə güzəştli qiymətə satılacaq", - deyə nazir bildirib.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN QAMARCVEBA VƏ NAQEBİ KƏNDLƏRİNDƏ YENİ UŞAQ BAĞÇALARININ AÇILIŞI OLUB

Qardabani bələdiyyəsinin Qamarcveba və Naqebi kəndlərində yeni uşaq bağçalarının açılışı olub. Naqebi kəndinin uşaq bağçasının tikinti işləri üç mərhələdə həyata keçirilib və onun ümumi dəyəri 190 751 larini təşkil edib.

Qamarcveba kəndindəki uşaq bağçasının tikintisi iki mərhələdə həyata keçirilib və dəyəri 72 674 lari təşkil edib.

Qamarcveba kəndinin uşaq bağçası 30, Naqebinin uşaq bağçası isə 25 uşaq üçün nəzərdə tutulub. Qeyd edək ki, bağçaların fəaliyyətə başlaması ilə əlaqədar əlavə 15 iş yeri yaranıb.

Bağçaların açılışı mərasimində Kvemo Kartli qubernatoru Şota Rexviaşili, Qardabani bələdiyyəsinin sakrebulo sədri Tariel Canxoteli və Qardabani bələdiyyəsinin meri Ramaz Budağaşvili iştirak ediblər.



HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 MART 2019-CU İL/ №005 (85)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ეპნი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## OMBUDSMAN DİSKRİMİNASİYA İLƏ BAĞLI HESABAT TƏQDİM EDİB



Gürcüstanın Ombudsman Aparatına 2017-ci ilin sentyabrından 2018-ci ilin avqust ayına qədər diskriminasiya ilə bağlı 159 şikayət daxil olub. Bu barədə Gürcüstanın ombudsmanı Nino Lomcarianın martın 5-i təqdim etdiyi hesabatda bildirilib.

Sənəddə qeyd olunub ki, şikayətlərin 69%-i dövlət sektorunun payına düşüb. Diskriminasiya faktlarının 16%-i cinsi mənsubiyyət, 12%-i siyasi və digər baxışlar, 11%-i isə dini mənsubiyyətlə bağlı olub.

Ayrı-seçkilik üzrə halların böyük əksəriyyətinin əmək münasibətləri zamanı baş verdiyi məlum olub.

## TBİLİSİDƏ MİRZƏ FƏTƏLİ AXUNDOVUN VƏFATININ 141-Cİ İLDÖNÜMÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Tbilisidə yerləşən Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində Azərbaycanın görkəmli yazıçısı, dramaturqu, şairi və mütəfəkkiri Mirzə Fətəli Axundovun vəfatının 141-ci ildönümü ilə bağlı tədbir keçirilib. “Mirzə Fətəli Axundov və Tiflis” adlı tədbirdə azərbaycanlı gənclər və ziyalılar iştirak ediblər.

Tədbirdə dramaturq haqqında müxtəlif dillərdə nəşr olunmuş kitablar, onun və ailə üzvlərinin portret və fotoları sərgilənib.

M.F.Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru, Azərbaycanın əməkdar mədəniyyət işçisi Leyla Əliyeva tədbir iştirakçılarına yazıçının həyat və yaradıcılığı barədə məlumat verib. O bildirib ki, M.F.Axundov 66 illik ömrünün 44 ilini Tbilisidə yaşayıb.

L.Əliyeva xatırladıb ki, Tbilisidə M.F.Axundov adına küçə var və şəhərdəki 73 saylı Azərbaycan dilli məktəb də onun adını daşıyır.

Muzey direktorunun sözlərinə görə, böyük ədibin bütün əsərləri gürcü dilinə tərcümə olunub və yaxın zamanlarda həmin əsərlərin yer aldığı kitab işıq üzü görəcək.

Tədbir çərçivəsində rejissor Ramiz Həsənoğlunun M.F.Axundovun 200 illik yubileyi ilə əlaqədar çəkilmiş “Sübhün səfiri” filmi də nümayiş etdirilib.

## SÜRÜCÜLÜK VƏSİQƏSİNİN PRAKTİKİ İMTAHANI NƏ VAXTDAN KÜÇƏDƏ VERİLƏCƏK?



Hökumət yol təhlükəsizliyinə dair milli strategiyanın 2019-cu il fəaliyyət planını təsdiqləyib. Planda müxtəlif aktivliklər qeyd olunub və onları müəyyən vaxt ərzində müvafiq müəssisələr həyata keçirməlidir. Həmçinin hökumət tərəfindən təsdiqlənmiş fəaliyyət planında sürücülük vəsiqəsi imtahanının real hərəkətdə (küçədə) verilməsi məsələsinə cari ilin 1-ci və 3-cü rübündə qərar verilməli olduğu bildirilir.

Sənəddə qeyd olunan imtahanların Rustavi, Telavi, Qori, Axaltsixe, Kutaisi, Saçxere, Ozurgeti və Batumi bələdiyyələrində keçiriləcəyi də yazılıb. Proqnoz edilən büdcə isə 1 600 000 laridir.

Sürücülük vəsiqəsinin nəzəriyyə imtahanını verdikdən sonra vətəndaşlar praktiki imtahanı əvvəl köhnə qayda ilə – qapalı meydanda, sonra isə küçədə verməli olacaqlar.

## “ERA” TEATRI QARDABANİDƏ VƏ MARNEULİDƏ QASTROL SƏFƏRDƏ OLUB

Martın 6-sı “Era” Teatrı Qardabani Mədəniyyət Evində “Bu yolun son stansiyası” adlı tamaşasını Azərbaycan dilində nümayiş etdirib.

Tamaşanın maliyyə dəstəkçisi TİKA təşkilatıdır. Tamaşa Gürcüstan “Yeşilay” Cəmiyyətinin “Gürcüstanda zərərli vərdişlərə qarşı sənət vasitəsi ilə maarifləndirmə və təbliğat” layihəsi çərçivəsində hazırlanıb. Layihə insanların siqaret, narkotik maddələr, texnologiyalar, alkoqol asılılığı və qumar kimi zərərli vərdişlərdən ibarət mövzuları əhatə edir.

Tamaşanın ssenari müəllifi və quruluşçu rejissoru Tbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrının aktyoru Anar Rafiqoğludur. Tamaşada gənc aktyorlar Rabil İsmayılov, Məndər Sərdarov, Səma Sadiq və Sali Omarova iştirak ediblər.

Martın 10-u “Era” Teatrı eyniadlı tamaşa ilə Nəriman Nərimanov adına Marneuli Mədəniyyət Evində də Azərbaycan dilində çıxış edib.




Xatırladaq ki, “Era” Teatrının hazırladığı “Bu yolun son stansiyası” adlı tamaşa ilk dəfə yanvarın 24-ü Tbilisidə, Akaki Xorava adına Aktyorlar Evində, fevralın 10-u isə Batumidəki Acarıstan Dövlət Mahnı və Rəqs Ansamblının konsert zalında gürcü dilində nümayiş etdirilib.

## BU İLİN ƏVVƏLİNDƏN QİÇS-Ə YOLUXMA İLƏ BAĞLI 87 YENİ HAL QEYDƏ ALINIB



Gürcüstanda bu ilin əvvəlindən QİÇS-ə yoluxma ilə bağlı 87 yeni hal qeydə alınıb. Bu barədə Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzi məlumat yayıb.

Gürcüstanda, ümumilikdə, 7521 nəfər QİÇS daşıyıcısıdır. Xəstəliyə yoluxanların 5630-u kişi, 1891-i isə qadındır. Pasiyentlərin əksəriyyəti 29-39 yaş qrupuna daxil olan insanlardır. QİÇS 4007 xəstədə inkişaf edib, 1540 nəfər isə ölüb.

HİV infeksiyasına yoluxma hallarının 39,6%-i narkotik vasitələrdən istifadə, 46,5%-i isə cinsi əlaqə vasitəsilə yayılıb.

QİÇS-ə yoluxan şəxslərin böyük əksəriyyəti Tbilisinin payına düşür. Tbilisidə 2758 nəfər QİÇS daşıyıcısıdır. Kvemo Kartli bölgəsində isə bu xəstəliyə 387 nəfər yoluxub.

Gürcüstanda 111 uşaqda HİV infeksiyası aşkarlanıb. Onların 69-u oğlan, 42-si isə qızdır. Onlardan 27-si ölüb.

Qeyd edək ki, Gürcüstanda QİÇS-ə yoluxma ilə bağlı ilk hal 1989-cu ildə qeydə alınıb.

## FEVRAL AYINDA ƏRZAQ MƏHSULLARI, İÇKİLƏR VƏ SİQARETİN QİYMƏTİ ARTIB



Fevral ayında ərzaq məhsulları, alkoqollu və alkoqolsuz içkilərin, siqaretin qiyməti artıb. Bu barədə Gürcüstan Milli Statistika Xidməti məlumat yayıb.

Məlumatda deyilir ki, ötən ay ölkədə ərzaq məhsulları və alkoqolsuz içkilərin qiyməti 0,1 faiz, alkoqollu içkilər və tütünün qiyməti 6,7 faiz artıb. Bunun əksi olaraq, geyim və ayaqqabıların qiyməti 4,6 faiz ucuzlaşıb.

Məlumatda həmçinin bildirilir ki, ölkədə illik inflyasiyaya uyğun olaraq ərzaq məhsulları və alkoqolsuz içkilərin qiyməti 2,9 faiz, alkoqollu içkilər və tütünün qiyməti 16,1 faiz, səhiyyə xərcləri 3,4 faiz, nəqliyyat 2 faiz artıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bakiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.